**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**

Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aynur Turan
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev



Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.



Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

**web:** www.clb.az
**facebook:** fb.com/childlibazerbaijan
**x.com/**childlibaze
**instagram:** childlibazerbaijan
**youtube:** childlibazerbaijan


# Göy Qurşağı


№ 03 (87) / 2025 UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL


BAKI BEYNƏLXALQ KİTAB SƏRGİSİ 11

## 11-Cİ BAKI BEYNƏLXALQ KİTAB SƏRGİSİ



## TEXNO-İNSAN

DÜNƏNİN ƏFSANƏSİ - BU GÜNÜN HADİSƏSİ



*Kitab dünyasının səyahətçiləri*

# İncəhörümün kitab sərgisi macərası - XI Bakı Beynəlxalq Kitab Sərgisində









Salam, dostlar! Bu mənəm — İncəhörüm! Bilirsiniz, Oktyabrın ilk günlərində Bakı Ekspo Mərkəzinə elə bir sehr enmişdi ki, hər yerdə kitab qoxusu, uşaqların gülüşü və rəngli səhifələrin cingiltisi duyulurdu. Bilirsinizmi niyə? Çünki XI Bakı Beynəlxalq Kitab Sərgisi başlamışdı!

Mən çox yerə, eləcə də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının sehrli stendinə də baş çəkdim. Ora elə bil ki, nağıl diyarı idi – rəngləmə masaları, gülümsəyən kitabxanaçılar, əllərində qələm və fırça tutmuş uşaqlar... Hər kəs yaradıcı idi! Mən uşaqlarla birgə küləkgülü və zərflər hazırladıq, sonra zərflərə müəllimlərimizə ən səmimi arzularımızı yazdıq. O qədər gözəl alınmışdı ki, sanki hər küləkgülü arzularımızı göyə aparırdı. Sonra gözəl və maraqlı bir "Oxu saatı" başladı. Sevimli və qayğıkeş yazıçı Sevinc Nuruqızı balaca dostlarımızla görüşdü. O, bizə öz kitablarından oxudu, maraqlı suallar verdi, biz də yarışa-yarışa cavab verdik. Yazıçı o qədər şirin danışırdı ki, hamı kitab qəhrəmanı olmaq istəyirdi! Bu məni çox sevindirirdi.





Ertəsi gün Türkiyədən gəlmiş nağılçı Sema Yaylı bizə nağıl danışdı. Amma elə-belə yox ha — musiqi ilə, səs tonları ilə, elə danışdı ki, elə bil nağılın içindəyik! Daha sonra o, origami sənəti üzrə ustad dərsi keçdi. Uşaqlara bu sənətin incəliklərini izah edən yazıçı onlarla birlikdə kağızdan müxtəlif fiqurlar da hazırladı. Mən də tədbir zamanı öz dostlarıma "Göy Qurşağı" uşaq jurnalı hədiyyə etdim.






Hə, dostlar, bir də nə görsəm yaxşıdır — "Molli Mun" kitablarının müəllifi Corciya Binq sərgiyə gəlmişdi! O, ingilis yazıçısıdır və kitablarının qəhrəmanları sehrlərlə doludur. Bizə "Molli Munun Hipnotizmi" ndən danışdı, hətta kitablarını imzalayıb hədiyyə etdi! Mənim kitabımda "To Inca — keep dreaming!" yazmışdı! Onu da qeyd edim ki, hədiyyəm kitabxanamızdadır, siz istənilən vaxt gəlib oxuya bilərsiniz.

Amma sərginin ən şirin hissəsi 5 və 6 oktyabrda idi! Biz yazıçı Mehriban Nağıyeva ilə görüşdük. O, vətənpərvərlik ruhunda şeirlər oxudu, biz də onunla birgə səsləndirdik. Sonra Gülzar İbrahimova bizə nağıllar danışdı, birlikdə məntiq oyunu oynadıq. Elə əyləndik ki, zamanın necə keçdiyini hiss etmədik!

Ən nəhayət, Zahirə Cabir "Səndəli, Fəli və Şəli" adlı qaravəlli kitabını təqdim etdi. Kitabın rəssamı Ayişə xanımın çəkdiyi şəkillər elə bil canlanırdı.

Sonra "Melissa" kitabından balaca dostlarımız səhnəcik göstərdilər. Ən fəal uşağa kukla hədiyyə edildi — hamımızın gözü o kuklada qaldı!

Sonuncu gün türk rəssam Məryəm Kurt bizə rəsm dərsi keçdi. O, fırçanı elə tuturdu ki, sanki rənglər onun əlindən qaçmaq istəmirdi. Biz də rənglərə azadlıq verdik — göy üzünə bənzər, ümidlə dolu şəkillər çəkdik.

Sərgi bitəndə bir az kədərləndim… Amma sonra düşündüm ki, kitablar elə dostdur ki, sərgilər bitsə də, onlar həmişə yanımızdadır.












***Unutamyın! Kitab oxumaq – səyahət etmək kimidir. Hər səhifə yeni bir dünya, hər söz isə sehrli bir qapıdır. Gəlin, o qapıları birlikdə açaq!***










Sevinc Nuruqızı

# Şövkət Səlimova

## Suların fatehi qadın

– Ana, ay ana, Şövkət yenə də gölməçəyə girib…

Doqquz uşağın doqquzu da bu xəbər ilə ananın üstünə qaçanda, ananın tədbir görməkdən başqa əlacı qalmadı.

Evin kənarında yağış sularının yaratdığı gölməçədə gəzən Şövkətin ayaqları və donunun ətəyi yarıyadək suyun içində idi.

Anası gölməçənin kənarında dayanmışdı:

– Şövkət, nə edirsən orada? Başdan-ayağa su içindəsən.

Şövkət çevrildi. Dayandığı yerdən azacıq kənara çəkildi və dedi:

– Ana, gəminin dalınca gedirəm.

Gölməçənin tən ortasında kağız qayıq var idi… Onu hər gün olduğu kimi bu gün də Şövkət özü düzəldib suya buraxmış və gölməçənin içi ilə ardınca irəliləmişdi…

Beləcə, 1920-ci il dekabrın 25-də İsmayıllıda doğulmuş Şövkət böyüdü. Zəkası və dərk qabiliyyəti ilə fərqləndi. 15 yaşında məktəbdəki aviamodellər dərnəyinə üzv oldu:

– Ata, düzəltdiyim aviamodel müəllimlərimin xoşuna gəlib. Məni Moskvada keçirilən aviamodellər olimpiadasına üzv seçiblər...

Sonra gənc Şövkətin uğurları bir-birini əvəz etdi. Onun hazırladığı model ən uzun məsafəni qət edib Ümumittifaq rekordunu yenilədi... Və üç il heç kəs və heç nə onu bu zirvədən sala bilmədi. Təsəvvür edirsinizmi, sonra nələr baş verdi...

Uzun əsrlər boyu insanın ən böyük arzusu uçmaq olub. O həmişə yuxularında qanadlanıb, ağ-gümüşü buludların arasında pərvaz edib və yerə enib...

Gözlərini açanda isə bunun yuxu olduğunu anlayıb və kədərlənib... Amma gənc Şövkətin planer-də ilk uçuşu yuxu deyil, həqiqət idi...



## Mavi səmalar və mavi sular...

Mavi ümid rəngidir... Şövkət bir mavilikdən digər maviliyə doğru yol alanda həyata olan bütün ümidləri mavi və ağ-gümüşü rəngdə idi.

Və elə həmin ağ-gümüşü ümidlərinin günlərin bir günü doğrulacağına inanan Şövkət, vərəqlədiyi jurnalda uzaq səfərlər kapitanı olan ilk qadın haqqında maraqlı bir yazı və fotoşəklə qarşılaşdı.

Son qərarını verdi – iki mavilikdən birini seçdi... Suları...

– Qızım, su çox qorxuludur. Dənizlərin ənginliyində heç vaxt qadına yer olmayıb. Çünki qadının onun qasırğa və tufanlarına dözəcək gücü və qüvvəsi yoxdur.

Şövkət deyilənin tam əksini sübut etdi. Arzularının ardınca getdi və 20 yaşında Bakı Su Nəqliyyatı Texnikumunun “Gəmi sürücüsü” fakültəsini bitirdi.

Sonra çox çətin illər – İkinci Dünya müharibəsi başlandı. Alman faşizmi ilə mübarizə və müharibə illərində Şövkət Səlimova Xəzər Dəniz Gəmiçiliyi İdarəsində gəmi kapitanının müavini və gəmi kapitanı işləyirdi.

Müharibə dövründə dünyada iki qadın gəmi kapitanından biri, Azərbaycanda isə yeganə gəmi kapitanı oldu.



*Sevimli yazarlarımız*




# ÇARIQLAR

**Solmaz Amanova**

**Kənddə kiçik və yarıqaranlıq otağın küncündə içində köhnə əşyalar olan sandıq var idi. Bir hadisə baş verməsəydi, bəlkə, illərlə onu açmaq ağlıma belə gəlməyəcəkdi.**

İş belə gətirdi ki, evdə geyindiyim şap-şaplar cırıldı. Özüm də qonaq gözləyirdim. Nə edəcəyimi bilmirdim. Qəfildən gözümə küncdəki sandıq sataşdı. İçində nənəmin çarıqları olduğu ağlıma gəldi: "Bəlkə, nənəmin çarıqlarını geyinim", – deyə düşündüm. Tez onları sandıqdan çıxartdım. Geyindim. Öz-özümə pıçıldadım: "Çox gözəldirlər. Yaraşıqlı və rahat. Onları geyinəndən sonra ayaqlarım elə bil dincəldilər." Sonra sanki kimsə qulağıma pıçıldadı: "Jileti geyin, jileti geyin. Sənə çox yaraşar." O saat nənəmin jiletini geyinmək həvəsinə düşdüm. Güzgünün qarşısına keçib həvəslə özümə baxdım: "Necə də gözəl görünürəm. Jileti geyinən kimi elə bil iyirmi il cavanlaşdım. Görəsən niyə?"

Özümü saxlaya bilmirdim. Maraq məni bürümüşdü. Sandıqdan bükülüb səliqə ilə yığılmış al-qırmızı xalçanı çıxartdım. Tozunu çırpıb eyvana sərdim. Köhnə əşyalar beynimi təzələdi, xatirələr məni ağuşuna aldı. Sandıqdan bir-birinin ardınca çıxardığım qədim əşyalar məni valeh etmişdi. Sanki quş kimi uçurdum. Ayağımda nənəmin çarıqları, xalçanın üzərində dövrə vururdum: "Haradasan, uşaqlığım?!" – deyə pıçıldadım. Sonra nə olduğunu özüm də bilmədim. Sanki bir burulğana düşdüm. Külək məni sürətlə uzun illəri arxada qoyub keçmişə apardı. Bir göz qırpımında qayğısız uşaqlıq illərinin yaşanmış günlərini yenidən yaşamağa başladım.

Balaca, yığcam həyəti uşaqların səs-küyü başına götürmüşdü. Elə oradaca, böyük, rəngbərəng sandığın yanında hana qurulmuşdu. Nənəm hananın arxasında oturub xalça toxuyurdu. Balaca bir qız yekə, parıldayan gözlərini sandıqdakı əşyalara dikmişdi:
tünd-qırmızı dəri çarıqlar, üstü rəngbərəng saplarla işlənmiş jilet, qızılı üzlü kitab.

– Nənə, bunları haradan almısan?

– Onlar mənim nənəmin cehizi idi. Adi əşyalar deyil, sehrlidirlər.
Qoy xalçanın bu naxışını vurum qurtarım, sənə sandıqdakı əşyaların sehrli gücü haqqında maraqlı əhvalat danışacağam.

Bütün uşaqlar nənəmin ətrafında əyləşib onun sonuncu ilməni atacağı anı gözləyirdilər.
Mən də diqqətlə bu səhnəni izləyirdim. Parlaq gözləri olan qızcığazın kim olduğunu xatırlamağa çalışırdım. O mənə kimisə xatırladırdı. Ən çox da onun siçan quyruğuna bənzəyən nazik hörükləri. Qəfildən yaddaşım aydınlaşdı: "Bu ki, mənəm! Görəsən, niyə mən onları görürəm, onlar məni yox?" Külək pıçıltıyla dedi: "Yuxu görürsən, yuxu görürsən." "Yox! Budur, mən xalçanın üstündə dayanmışam. Ayağımda nənəmin çarıqları. Hər şeyi olduğu kimi görürəm." Orada, bir qədər aşağıda çiçəkləmiş albalı ağacının altında nənəm oturmuşdu.
Ətrafını uşaqlar dövrələmişdi. Onların arasında mən də var idim. Həyət qapısı cırıldadı. Anam işdən qayıtmışdı. Mən cəld uşaqlardan ayrıldım, anamı qarşılayıb, çantasını əlindən aldım.

– Bu gün nə ilə məşğul olmusunuz? – deyə anam soruşdu.

– Ana, nənəm bizə çarıqlar, jilet və sehrli kitab haqqında danışmaq istəyir.

– Mən ancaq kitab haqqında bilirəm. İstəyirsən, sənin taleyinə baxım.

Anam kitabı açıb fars dilində bir cümlə oxudu:



– Burada yazılıb ki, sən bütün ömrün boyu oxumalısan. Çox oxusan, yazıçı olacaqsan.

– Yox, ana, inşa yazmaqdan zəhləm gedir.

– Sən elə indicə gedib inşa yazmalısan.

Anamın dedikləri məni düşündürdü. Onunla razılaşdım:

– Nə haqqında yazım?

– Bax elə bu çarıqlar haqqında. Gör bir necə gözəldirlər!

"Ana, anacan, mən buradayam. Mən sənin yanına qayıtmışam. Özü də yazıçıyam. Bax, həmin çarıqlar da ayağımdadır. Mən onları necə unuda bilərdim?! Axı mən onları tez-tez sandıqdan çıxardıb baxar və inanardım ki, onlarda nənəmin bizə danışa bilmədiyi sehrli bir qüvvə var. Ana! Ana!"

Anam başını qaldırdı. Diqqətlə səmaya baxdı:

– Albalı ağacı nə gözəl çiçəkləyib, – dedi. Amma məni görmədi. Mən isə al-qırmızı xalçanın üzərində, nənəmin tünd-qırmızı çarıqları ayağımda və jileti əynimdə havada süzürdüm. O məni görmürdü.



# Sirli notlar muzeyində

Klara R.Hits




***Səhər günəşli və isti idi. Peter yaxşıca dincini alıb sevimli MELODİYAsının axtarışına yollandı. O, Notlar muzeyinə getdi. Onu kitabxanaçı qarşıladı – qəhvəyi rəngli sürtülmüş kostyumlu qoca piano. O, qəsrdəki dəbdəbəli katibə heç bənzəmirdi! Katibin məlahətli, ahəngdar səsi var idi, Peterdən nə lazım olduğunu soruşan qəhvəyi pianonun səsi isə həm titrəyir, həm də xırıldayırdı.***

Peter Nazir-Prezidentin imzaladığı məktubu kitabxanaçıya təqdim etdi. Məktubla tanış olduqdan sonra qoca kitabxanaçı cibindən bir dəstə əcaib görünüşlü açar topası çıxartdı və onlar kitabxananın içərisinə keçdilər.

Orada çoxlu sayda böyük qutular, divar boyu isə tavana qədər ucalan rəf var idi, hər tərəf də notlarla dolu idi. Hansısa kiçik bir musiqi əsərini yuxarıdan götürmək üçün nərdivan kimi düzülmüş qammalarla qalxma lazım gəlirdi. Peter öz MELODİYAsını burada necə tapacağına çaşıb qalmışdı.

Kitabxanaçı qarşısına nəhəng bir kitab qoyub dedi:

- Burada nəyi harada axtarmaq və bunun üçün hansı açardan istifadə etmək lazım olduğu dəqiq qeyd olunur. Mən sənin MELODİYAnın hansı əsərdə səsləndiyini bilmək istərdim.

Ruh yüksəkliyi Peteri çoxdan tərk etmişdi. O yenə boynuna aldı ki, bu barədə da heç bir anlayışı yoxdur. Kitabxanaçı tam ümidsiz şəkildə üzərindəki hər iki şamı üfürüb söndürdü.

Sonra yeni bir soraq kitabçası peyda oldu.

- Deyə bilərsən, bu MELODİYAnı hansı alət ifa edir?

Nəyahət, Peter nəsə cavab verə bildi:

- Məncə, onu orkestrin bütün alətləri və xeyli sayda adam ifa edirdi.

- Bu başqa məsələ! Bax indi bizim çıxış nöqtəmiz müəyyən oldu!

Orkestr və xor... Ola bilsin, bu, operadır. Məzmununu danış görüm.

İştirak edən şəxslər kimlər idi? Səhnədə nə kimi dekorasiya var idi?

Bunlar haqda xəbər ver, mən də düşünüb MELODİYAnı hansı operada tapmalı olduğunu sənə deyim.

- Xeyr, xeyr. Mən operada olmamışam. Orada dekorasiya yox idi. Bu, konsert idi.

Peter ağlamağa başladı.

Qoca piano bilmirdi, onun ürəyini necə alsın. O deyinirdi: bunlara bir baxın, göndəriblər səfeh bir balaca uşağı yanıma... anasının ətəyindən yapışıb evdə qalsaydı, daha yaxşı olardı...

Bu sözlər Peterə yaman təsir etdi! Gözlərinin yaşı tamamilə qurudu. Bəyan etdi ki, nə baş verirsə versin, nəyin bahasına olursa olsun, o öz MELODİYAsını tapmalıdır! Zal boyu təkərləri üzərində cırıl-daya-cırıldaya diyirlənən qoca Pianonun ağlına yeni bir ideya gəldi:

- Dayan, dayan... Tapdım! Buna çox böyük əmək sərf olunacaq, amma sənin xətrinə...

- Sənin MELODİYAn hansı tonallıqda səslənir? Mən sənin axtardığını taparam.

- Bura bax, sən tonallığın nə olduğunu heç bilirsən? Pərt olmuş Peterin ağzından bir söz belə çıxmadı.

- Sən işə bir bax! Ağlasığmaz bir şey! O heç majorla minorun nə olduğunu belə bilmir! - qoca Piano ən yüksək cingiltili notlar ilə zəngulə vurdu.

- Bilirəm, bilirəm... - Peter özündən çıxmış qocanı tez sakitləşdirməyə çalışdı. Major gülür, minor isə aglayır. Mənim MELODİYAm isə çox sevinclidir, o ancaq majorda ola bilər.

- Nəhayət ki, müəyyən bir məlumat əldə etdik. Bəs hansı majorda?

- Çox gözəl bir majorda.

- Nə?! - kitabxanaçı bağırdı. - Mərc edirəm, sənin heç diyez ilə bemolun nə olduğu haqda anlayışın belə yoxdur... Bir dəqiqə dayan...

Ah, mənim əzizim... Sən heç notların nə olduğunu bilirsən?

- Xahiş edirəm, mənə acığınız tutmasın. Mən hələ musiqi dərsləri almamışam...

O, cümləni bitirə bilmədi. Şaqqıltı səsi gəldi, yazıq qoca Pianonun az qala ürəyi getmişdi:

- Oh-ho-ho! Həyəcandan simlərimdən biri partladı!

Görün vəziyyət nə yerə çatıb ki, belə cahillər elmi axtarışlar aparırlar!

Peterin halı çöndü:

Mənə qəzəblənməyin. Mən hələ heç nə bilmirəm. Axı mən çox balacayam. Amma oxuyub öyrənməyi elə arzu edirəm... Bəlkə, Siz məni bu sirli Not krallığına daxil edəsiniz. Möhtəşəm sehrbaz, - Xülya mənimlədir. O mənə hər şeyi tez anlamağa kömək edəcək, mütləq kömək edəcək.

- Yaxşı, yaxşı, olsun, gəl gedək. - Biz sənin MELODİYAnı hələ tapa bilmirik. Əvəzində isə mən sənə başqa bir şey göstərəcəyəm.

**Tərcümə: Aygül Qaradağlı**



*Zahid Xəlil*

## *Nota düşən nəğmələr*

*Nota düşən nəğmələr-*
*Hələ uyuyan quşdu.*
*Bir də görəcəyik ki,*
*Əngin səmaya uçdu.*

*Keçdi bütün dünyanı,*
*Gül üstə şehə döndü.*
*İnsanlara ruh verən*
*Bir sərin mehə döndü.*

*Hər not bir quş lələyi,*
*Hər not bir quş gözüdü.*
*Not nəğmənin şəklidi,*
*Not nəğmənin özüdü.*

*Bax, bu not albomudu-*
*Nəğmələrin yuvası.*
*İstəyirsən, buyur, çal,*
*Səsi göyə ucalsın.*

*Uçun, bizim mahnılar,*
*Uçmaq sizə yaraşır.*
*Bu şirin ahənginiz*
*Ölkəmizə yaraşır.*



# Musiqi Xəzinəmiz

*Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi*

*Uşaqlar, siz heç qədim musiqi alətlərini yaxından görmüsünüzmü?*

*Elə bir yer var ki, orada tarın, sazın, kamançanın, zurnanın, neyin və daha neçə-neçə qədim musiqi alətinin səsi hələ də yaşayır. Dostlar, bu sehrli yer – Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyidir!*

*Bəs bu ecaskar muzey nə vaxt yaradılıb? Gəlin öyrənək.*

*Muzey 1967-ci ildə yaradılıb. Onun məqsədi Azərbaycan musiqisinin tarixini qorumaq, tanıtmaq və gələcək nəsillərə çatdırmaqdır. Dostlar, təsəvvür edin ki, burada 60 mindən çox maraqlı eksponat var! Bəziləri çox qədim musiqi alətləridir, bəziləri isə məşhur bəstəkarların və müğənnilərin şəxsi əşyalarıdır. Burada sən Üzeyir Hacıbəyovun, Bülbülün, Qara Qarayevin, Fikrət Əmirovun notlarını, köhnə afişaları və fotoşəkilləri görə bilərsən. Hətta köhnə qramofonlar və patefonlar da var – onlar musiqini vallardan səsləndirir!*

*Onu da qeyd edim ki, muzeyin maraqlı filialları da fəaliyyət göstərir:*

*Xalq çalğı alətləri sərgisi*

*Niyazinin, Vaqif Mustafazadənin və Qara Qarayevin ev-muzeyləri*

*Burada "Qədim Musiqi Alətləri Ansamblı" adlı bir qrup da çıxış edir. Onlar qədim alətlərdə canlı musiqi ifa edirlər – sanki səni keçmişə aparırlar!*

*Maraqlıdırmı? Belə hiss edirəm ki, artıq internetdən həmin muzeyin axtarışındasınız. Hazırda muzey Neftçilər prospektində, Muzey Mərkəzində yerləşir. Əgər musiqini sevirsinizsə, bu muzey sizin üçün əsl xəzinədir!*





# Hər musiqi aləti bir hekayə danışır

*Hər birimizin həyatında musiqi var – kimisi səhər quşların nəğməsini, kimisi sevdiyi mahnını dinləməyi xoşlayır. Mən isə bu sehrli dünyanın izini Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində tapdım.*

*Muzeyin qapısından içəri girən kimi, sanki qədim bir nağıl aləminə düşdüm. Otaqlarda tarın, kamançanın, sazın səsi pıçıltı kimi dolaşırdı. Gözümə maraqlı bir musiqi aləti sataşdı – əsa-tar! Tar kimi səslənən, amma əsa formasında olan bu aləti tarzən Əhməd Bakıxanov hazırlayıb. Hətta Sadıqcanın düzəltdiyi qədim tar da burada idi — onun sayəsində tar dizdə yox, sinədə ifa olunmağa başlayıb.*

*Bir az irəlidə Aşıq Ələsgərin 200 illiyinə həsr olunmuş otağa keçdim. Burada müxtəlif ölçülü sazlar, qoşa nağaralar, zurnalar vardı. Divarda isə aşıqların şəkilləri, sazların yanında papaqlar və köhnə kəmərlər sərgilənirdi. Bəstəkar Qənbər Hüseynlinin aşıq havalarının notlarını yazdığı əlyazmalar da muzeyin xəzinələrindəndir.*

*Ən maraqlısı isə quru çaydan hazırlanmış Qara Qarayev portreti idi! Rəssam Ramil Qasımov bu əsəri sadəcə çay və yapışqanla yaradıb. Elə bil portretdən musiqi sədaları gəlirdi.*

*Sonuncu zalda Şuşa musiqiçilərinə həsr olunmuş sərgi var idi. Burada Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının afişası, köhnə qəzet xəbərləri və "Xarıbülbül" festivalından şəkillər diqqətimi çəkdi.*

*Bu muzey elə bil keçmişlə gələcəyin qovuşduğu sehrli bir körpüdür. Burada hər alət, hər şəkil, hər səs bizə bir şeyi xatırladır —musiqi bizim kimliyimiz, tariximiz və ruhumuzdur.*

BU KİTABLAR DANIŞIR!

# KİTAB RƏFİNDƏ YENİLİKLƏR






Sənan və Pəhləvan sehrli yumurta tapıb Təbiət diyarına düşürlər. Ora elə bir yerdir ki, hər daşın, hər ağacın içində sirr gizlidir! Onlar dost və düşməni ayırmağı, qorxularını aşmağı öyrənirlər. Axırda isə Baharın xilasında Keçəlin köməyi ilə əsl möcüzəni görürlər.




Kitabda Ninin hekayəsindən danışılır. Robotlarla dolu soyuq dünyada o, təbiəti və insanlığı qorumaq üçün mübarizə aparır. Nin qorxmur, çünki bilir — dünyanı xilas edən ən böyük güc insanın ürəyidir!




Kitabda dahi bəstəkarımızın sənətinə olan böyük sevgi və ehtiramı görürük. Rəssamlar, heykəltəraşlar və sənətkarlar Üzeyir bəyin musiqisini rənglərlə, formalarla danışdırıblar — sanki notlar kətanda rəqs edir!




Burada dürüstlük, zəhmətsevərlik və Vətən sevgisi balacaların qəlbində çiçək açır. Hər hekayə bir işıq kimidir — balaca oxucuların yolunu nurlandırır.




**Where is my baby? Bulgantamiriin Battsetseg**

Story of a mother camel searching for her baby camel in the Gobi Desert, Mongolia.

Kitab Mongolustandakı Gobi səhrasında balasını axtaran ana dəvə haqqında hekayədir.



# Asiyanın sehrli hekayələri

Uşaqlar, siz heç Asiyanın sehrli dünyasında gəzmisinizmi?
Bu dəfə bizə dörd möhtəşəm kitab bələdçilik edəcək!
Bütün bu kitablar Koreyanın Asiya Mədəniyyət Mərkəzinin "Asiya Hekayələri" silsiləsində birləşib.
Oxu, düşün, xəyal et! Bəlkə növbəti hekayə elə sənin içindən doğacaq!




**Süreyyanın izində**
**Sevinc Nuruqızı**
**(Finding Shreya)**

Bu kitab bizə öyrədir ki, dünyanın ən böyük gücü – uşaq qəlbindəki sülh istəyidir. Çünki bəzən kiçik bir qız, köhnə bir gəlincik və ağ qanadlı bir göyərçin belə bütün dünyanı dəyişə bilər.




**Nar and the Snowman – The Folk Tale from Uzbekistan**
**Нар и снеговик - Узбекская сказка – Кавсар Турдиева**

Снеговик, который слепил Нар, стал моргать глазами и шевелиться. Затем снеговик подошел к плачущим животным. «Ребята, не плачьте. Я помогу вам». Благодаря этой сказке вы задумаетесь о «добрых поступках» и «ответственности».




**Crunch Time with Aaruul – Sanghee Lee**

A story of time travel back to the Mongolian meadows hundreds of years ago with sweet and sour aaruul, the traditional Mongolian snack.

Kitabda yüz illər əvvəl Monqol çöllərinə səyahət — günəşin altında bərq vuran otlar arasında şirin və turş aaruulun haqqında danışılır.




**When Will the New Year Begin?**
**Duysen Kenneth Arazvjecooley**

Когда наступит Новый год?
Народная сказка из Казахстана.
An interesting story about Nauriz, the biggest holiday in Kazakhstan.





Kindness through Fairy Tales

# The Apple Tree and the Farmer

Once upon a time, there was a farmer who lived near a forest. He had a big garden. In the garden, there was an old apple tree and many other plants and flowers.

When the farmer was a little boy, he loved the apple tree. He played under it and ate its sweet apples. The tree made him very happy.

But now the tree was old. It didn't give apples anymore. So, the farmer thought,

"This tree is useless. I will cut it down and use the wood to make furniture."

He picked up his axe and started to chop the tree.

Suddenly, many small animals came out of the tree. There were squirrels, birds, insects, and even a grasshopper. They all lived in the tree.

They cried out,

"Please don't cut the tree! This is our home. We have nowhere else to go."

But the farmer didn't listen. He lifted his axe again.

The squirrel said,

"My babies live here. Please don't destroy our home!"

The birds said,

"This is our nest. Please don't cut it!"

Still, the farmer didn't stop. The animals became very sad.

They said,

"If you let the tree stay, we will help you. We will sing songs when you work in the field. We will play with your son and make him smile."

But the farmer kept chopping.

Then, he saw something shiny. It was a beehive full of honey. He tasted the honey and smiled. It was very sweet. Suddenly, he remembered his happy childhood under the apple tree.

The bee said,

"I will give you honey forever."

The squirrel said,

"You can take as many nuts as you want."

The birds said,

"We will sing for you every day."

Now the farmer understood. He remembered how special the tree was to him as a child.

He dropped the axe and said,

"I'm sorry. I will not cut the tree. You can live here in peace."

The animals were very happy and thanked the bee. The old apple tree became full of life again, and the farmer's little boy now played under the same tree — just like his father once did.

Moral:

Every living thing is important. We should protect nature, not destroy it.

# РАЗГОВОР ВО ВРЕМЯ ОБЕДА

АСЛИ САМЕДОВА




*Был один из самых обычных майских дней, когда до летних каникул оставалось совсем немного и так хотелось, чтобы они наступили скорее. Поэтому было особенно странно, что близняшки Зумруд и Али, обычно очень разговорчивые и веселые, впервые сидели молча за обедом.*

*— Вы поссорились? — спросила мама.*

*— Нет, — вздохнув, сказала Зумруд. — Нам дали скучное задание в школе.*

*¬— Любое дело может оказаться Скучным или, наоборот, стать интересным.*

*Все зависит от того, как ты к нему подойдешь! — с улыбкой произнесла мама.*

*— Мама! Это же так скучно! Мы должны написать сочинение, — жалобно протянул Али.*

*— Да, на тему "Ковры Азербайджана". Кому интересны эти половики?!*

*— продолжила Зумруд.*

*— Зума, как тебе не стыдно так говорить! А знаете ли вы, что наша семья имеет самое прямое отношение к коврам: наш далекий предок Микаил-бек был знаменит своими коврами на весь Карабах? — спросила детей мама.*

*— Как? Мужчины же не ткут ковры! — не поверив, воскликнул Али.*

*— Их ткут пожилые женщины! Например, как наша бабушка!*

*Шутка Али понравилась Зумруд, и они оба залились громким смехом.*

*— У него был цех, — продолжила мама, — а ковры ткали его работницы: женщины, молодые девушки и даже девочки.*

*— Девочки?! А как же права ребенка на счастливое детство и международный трудовой кодекс?! — возмутилась Зумруд.*

*— В то время не было никаких кодексов, глупая! — ответил Али.*

*— Мама! Скажи ему, что я не глупая!*

*— Вы оба у меня умные; пора доедать обед. Тогда я расскажу вам кое-что интересное.*

*Дети закивали, и мама продолжила:*

*— Ковры ткали все, и они были в каждом доме. Ковры не только украшали дома, но и спасали от холода и даже оберегали от злых сил. Каждая девочка твоих лет, Зума, умела ткать ковры и, наверное, уже сделала хотя бы один ковер для своего приданого.*

*—Ха-ха, Зума, а ты сделаешь ковер, когда будешь выходить замуж за Мурика?*

*— Мама, скажи ему!*

*— Дорогие мои непоседы, не дразнитесь и не ссорьтесь! Вы разрешите продолжить? — полушутя-полусерьезно спросила мама. Молчание означало согласие. — Так вот, ковры эти делали на продажу. Художники придумывали рисунки, а ткачихи создавали по ним ковры. Для этого Микаил-бек нанял много работниц. Но не так-то было легко устроиться к нему на работу. Специально нанятый человек ездил по деревням и отбирал способных девочек для работы в цеху.*

*— Выходит, Микаил-бек проводил конкурс? — спросила Зюма.*

*— Можно и так сказать. Эти девочки жили вместе, учились у более опытных ткачих создавать ковры. И ковры эти настолько радовали глаз, что служили дорогими подарками для очень важных людей, ценились выше золотых украшений в приданом невесты и их передавали по наследству.*

*—А у нас есть такие ковры?*

*— И да и нет!*

*— Так ведь не бывает! У тебя либо есть что-то, либо нет! — воскликнул Али. — Вы не кушаете! Еда остывает! Завтра мы пойдем бабушке Айше, и она вам все расскажет!*

*Дети заметно повеселели. Скучное школьное задание превращалось в захватывающее знакомство с историей семьи. Все оставшееся время они обсуждали наперебой вопросы, которые завтра зададут бабушке.*

# BEYNƏLXALQ SÜLH GÜNÜ

## 21 sentyabr tarixində bütün dünyada qeyd olunan bayram

***Mən anayam, bu səsimdə yerin, göyün dərdi var,***
***Sülhə gəlin, ey insanlar, yoxsa dünya məhv olar.***

Sülh! Sülh - əmin-amanlıqdır, asayişdir!

Sülh - ağ göyərçinlərin mavi səmalarda uçuşu, körpələrin üzünün təbəssümü, uşaqların şaqraq gülüşləridir!

Sülh şəraitində yaşamaq qədimdən günümüzədək bəşəriyyətin təməl arzusu olub.

Sükut sülhün ən gözəl melodiyasıdır.

Sülh – dörd hərfdən ibarət olan bu söz özündə nələri gizlədir?

1981-ci il... BMT-nin qərarı və 192 ölkənin səsi ilə Beynəlxalq Sülh Günü qəbul edilir. Hər kəsin diqqəti bu günə cəmlənir. Hər il bu günü qeyd edən Azərbaycan hər kəsi sülhə səsləyir. Dünyamıza sülh gərəkdir!

Sülh qəlblərin bir-birinə açıldığı bağ, bəşəriyyətin ən qiymətli hədiyyəsidir. Bir addımla başlayan sülh dünyanı dəyişə bilər. O, bəşəriyyətin ən böyük arzusudur, çünki yalnız onunla real tərəqqi mümkündür. Sülh insanların bir-birinə uzandığı və ümidlərin çiçək açdığı bir dövrdür.

Müharibə sözünü sülhlə, mərmi düşən torpaqları isə gül-çiçəklə əvəz edək...



1. Sülh sənin üçün nə deməkdir?
2. Sülh mövzusunda bir rəsm necə çəkərdin?
3. Sülh olmayan yerdə nə baş verir?

## Sülhə salam

*Gülzar İbrahimova*

Bir təyyarə düzəltdim,
Üstünə də bir nəhəng,
Yaraşıqlı və qəşəng,
Göyərçin şəkli çəkdim.
Qanadları ağappaq,
Üstünə sancdım bayraq.
Ad da qoydum "Sülh gəmisi",
Sülhə səsləsin hər kəsi.

Niyə birlikdə barışıq və sülh içində yaşamayaq? Hamımız eyni ulduzlara baxırıq, eyni planetdə yol yoldaşıyıq və eyni səma altında yaşayırıq.

*Aunius Aurelius Simaçus*





# GÖYƏRÇİN ƏFSANƏSİ

Qədim zamanlarda xeyirxah bir padşah yaşayırdı. O öz ölkəsini əmin-amanlıqla idarə eləyirdi.

Günlərin bir günü qonşu ölkənin hökmdarı onun ölkəsinə hücum edib padşahı təkbətək döyüşə çağırdı. Padşah çoxdan idi ki, müharibə etmirdi. Odur ki dava paltarını sarayın çardağında, əl-ayaqdan uzaq yerdə saxlayırdı. Savaşa bir gün qalmış şah anasından xahiş elədi ki, onun qılıncı ilə dəbilqəsini gətirsin. Anası getdi. Çox çəkmədi ki, oğlunun qılıncını, qalxanını gətirdi. Padşah anasından soruşdu:

- Bəs döyüş papağım hanı?

Ana dedi:

– Səni and verirəm halal südümə, dəbilqəyə dəymə!

– Anacan, mən padşaham! Padşah isə döyüş meydanına dəbilqəsiz çıxa bilməz.

Anası çardaqda gördüklərini deməli oldu:

– Bala, sənin döyüş papağının içində bir ağ göyərçin yuva qurub. Özünün də üç körpə balası var. Mən bu günahsız balalara toxunsam, ağ göyərçin bizdən küsüb gedər. Yetim balaların ah-naləsi ölkəmizə

bəlalar gətirər. Gəl bu dəfə döyüşə dəbilqəsiz get!

Bu sözləri eşidən padşah heç nə demədi, düşmənlə təkbətək döyüşə başı açıq çıxdı.

Qonşu ölkənin hökmdarı onu dəbilqəsiz görüb bunun səbəbini soruşdu. Padşah dedi:

– Mənim döyüş papağımda göyərçin üç bala çıxarıb. Anam südünə and verdi ki, balalara toxunmayım.

Bunu eşidən düşmən hökmdar qılıncını qınına qoydu, əlini düşməninə uzadıb dedi:

– Gəl barışaq! Sənin anan bir quşun – ağ göyərçinin evini dağıtmaq istəmədi. Biz niyə nahaq qan töküb minlərlə insanın evini dağıdaq?

Onlar barışdılar. O gündən ağ göyərçin sülh quşu hesab olunur.

## Kitab

ZAHİD XƏLİL

Mənimkidir bu kitab, bax
Açıram vərəq-vərəq.
Möcüzəyə baxın bir,
Meşə nağıllar deyir.
Yağış yuyur tarlanı,
Çimizdirir hər yanı.
Gülür otlar, çiçəklər,
Uçuşur kəpənəklər.
Traktor nərə çəkir
Həm şumlayır, həm əkir
Nəğmə deyir el-oba
Görən necə sığışıb,
Meşə,yağış, traktor
Bu əl boyda kitaba.

# Kitabları necə maraqlı və səmərəli konspektləşdirmək olar?

Uşaqlar, siz kitab oxumağı sevirsinizmi? Bilirəm ki, sevirsiniz. Oxuduğunuz kitabı yaxşı yadınızda saxlamaq üçün konspekt çıxarmaq çox kömək edir! Gəlin görək, bunu necə maraqlı şəkildə edə bilərik.




**RƏNGLİ QƏLƏMLƏRDƏN İSTİFADƏ ET!**

Rənglər oxumağı daha əyləncəli edir!

Əsas fikirləri qırmızı, maraqlı hadisələri yaşıl, qəhrəmanların adlarını isə mavi ilə yaz.

Beləcə konspektin həm gözəl, həm də faydalı olacaq!

**RƏSMLƏ GÖSTƏR!**




Oxuduğun hissəni kiçik rəsmlərlə canlandır!
Məsələn, qəhrəman dənizdə üzürsə – bir kiçik gəmi çək!
Bu, həm maraqlı, həm də yadda saxlamanı asanlaşdıracaq.




**“KİM? HARADA? NƏ OLDU?” SUALLARINA CAVAB VER**

Hər hissədən sonra bu üç sualı cavablandır:

Kitabın mövzusu və müəllifi haqqında nə öyrəndiniz?

Kitabın fəsilləri xronoloji ardıcıllıqla gedirmi? Bu, hekayələr və ya oçerklər toplusudurmu?

Bu kitab sizə ev tapşırığını yerinə yetirməkdə necə kömək edəcək?

Qeydlərinizi necə aparacaqsınız?

Bu üsulla hekayəni daha yaxşı anlayacaqsan.




**KİÇİK CƏDVƏL QUR**

Qəhrəmanları müqayisə etmək çox maraqlıdır!

| Qəhrəman | Necədir? |
|---|---|
| Rəsul | Cəsur |
| Lalə | Ağıllı |




**XÜLASƏ ÜÇÜN CÜMLƏLƏR YAZ**

Hər səhifədən sonra bir cümlə yaz
Məsələn: “Bu hissədə qəhrəman dost tapdı.”
Beləcə, kitabın nə haqqında olduğunu tez xatırlayacaqsan!




**AĞIL XƏRİTƏSİ DÜZƏLT**

Hadisələri oxlarla birləşdir:
Başlanğıc ⇨ Orta ⇨ Son
Dostlar, beləliklə, süjeti izləmək çox asan olacaq!




**ÖZ SÖZLƏRİNLƏ DANIŞ**

Oxuduğun hissəni bir dostuna, müəlliminə və ya ailənə danış.
Çünki, söhbət etdikcə hekayə daha yaxşı yadında qalacaq.




## *KİTABLAR*

*Nərgiz Mirzəyeva*
*gənc yazar*
*297 saylı məktəbin şagirdi*

Kitablar mənim dostum
Onlarla ucalıram
Kitablar düzgün yolum
Zirvəyə yol alıram
Mənim üçün kitabsız
Həyatın mənası yox
Düzgün mənalı yol
Kitabla başlanan yol
Həyatın sirrlərini
Bizə deyir kitablar
Ömrümüzün yollarına
Nur çiləyir kitablar
Gizli xəzinə kimi
Kitabları axtaraq!
Qiymətli əşya kimi
Kitabları qoruyaq!
Oxudum bir çox kitab
Gah güldüm, gah ağladım.
Dil açdı sanki kitab
Söhbət etdim, danışdım
Oxunan bir çox kitab
Yaddaşlarda qalandır
Ən çox sevdiyim kitab
Çarpələng uçurandır.

# POLİQRAFİYA USTALARININ SEHRLİ DÜNYASI



Uşaqlar, siz heç fikirləşmisinizmi — bu qədər gözəl kitabları, parpar parlayan jurnalları kim çap edir?

Bəli, bunları "Poliqrafiya Ustaları" adlı sehrli insanlar hazırlayır! Onların emalatxanası elə bil ki, bir nağıl dünyasıdır: orada kağızlar danışır, rənglər oynayır, hərflər isə söz-söz birləşib hekayələrə çevrilir.

Hər səhər ustalar işə başlayanda mürəkkəblər oyanır, kağızlarla dostlaşır və bir azdan yeni kitablar, jurnallar yaranır.

Uşaqlar bu sehrə baxanda anlayırlar ki, kitab yazmaq, rəngləmək, nağıl danışmaq — çox maraqlı bir işdir!

Poliqrafiya Ustaları uşaqlara belə deyirlər:

- "Əgər sən də çox oxusan, xəyal qurub yazsan və rənglərlə dostlaşsan, bir gün sənin də kitabın bizim emalatxanadan çıxacaq!"

Unutmayın: hər oxuduğunuz kitabın arxasında bir az sehr, bir az da əmək gizlənir.



## POLİQRAFİYANIN SEHRLİ PEŞƏLƏRİ

Hər usta öz möcüzəsini yaradır:

**DİZAYNER** — rənglərin sehrbazıdır. O, səhifələri bəzəyir ki, kitab oxuyan heç vaxt darıxmasın.

**ÇAPÇI** — gurultulu maşınlarla işləyir, mürəkkəbi kağıza köçürür. Onun sayəsində sözlər və şəkillər "canlanır".

**REDAKTOR** — hərflərin qoruyucusudur. O, səhvləri tutub düzəldir ki, hekayə aydın və gözəl olsun.



**RƏSSAM (İLLÜSTRATOR)** — fırçası ilə qəhrəmanlara can verir. Nağıllardakı qalalar, dənizlər, meşələr onun fırçasından doğulur.

**CİLDÇİ** — səhifələri qucaqlayıb birləşdirir, kitabı möhkəm və gözəl edir.

**KORREKTOR**— kiçik böcəklər kimi hərflərin arasına baxır, ən xırda səhvləri belə tapır.

Beləcə, hər kəs öz sehrli işini görür və birlikdə uşaqlar üçün möcüzə yaradır.



## "BİZİM SEHRLİ KİTAB FABRİKİ" OYUNU

*Gəlin indi biz də öz kitabımızı hazırlayaq! Beləliklə, hər biriniz bir usta olun!*

**ÇAPÇI:** Mən kiməm? Maşınım gurultu ilə işlədirəm, kağızlara rəngli sözlər yazıram.

**DİZAYNER:** Mən kiməm? Rəngləri dost edirəm, hərfləri və şəkilləri gözəl düzürəm.

**RƏSSAM:** Mən kiməm? Fırçam var, nağılları şəkillə danışdırıram.

**REDAKTOR:** Mən kiməm? Hərflərin müəllimiyəm, səhvləri tapıb düzəldirəm.

**CİLDÇİ:** "Mən kiməm? Səhifələri qucaqlayıram, onları bir yerdə saxlayıram."

***Oyunun qaydasını sizə izah edirəm. Əminəm ki, çox xoşunuza gələcək. Elə isə, rolları uşaqlar arasında bölüşdürün.***

Əvvəlcə mövzu seçin — məsələn: nağıl, heyvanlar, kosmos və ya dostluq.

Hər kəs öz işini görsün: biri hekayə yazsın, biri şəkil çəksin, biri səhvlərə baxsın.

Axırda kitabın adını isə birlikdə seçin!

Beləcə, siz həm oynayacaqsınız, həm də kitabların necə yarandığını, Poliqrafiya Ustalarının nə qədər vacib iş gördüyünü öyrənəcəksiniz.

Əminəm ki, bu oyunla siz çox əyləndiniz.

# BEYNƏLXALQ ANİMASİYA GÜNÜ:
## Keçmişdən Gələcəyə Səyahət



*Uşaqlar, siz cizgi filmlərini sevirsinizmi?*

*Rəngli qəhrəmanlar, sehrli dünyalar və macəra dolu hekayələr bizi animasiya ilə tanış edir.*

*Bilin ki, hər il 28 oktyabrda bütün dünya Animasiya Gününü qeyd edir. Bu gün animasiya sənətinin "ad günü" sayılır. İlk cizgi filmi çox-çox illər əvvəl – 1892-ci ildə Fransada göstərilib. O vaxtdan bəri animasiya inkişaf edib: indi kinoteatrda, televizorda, hətta telefonlarımızda sevimli cizgi filmlərinə baxa bilirik.*



*Animasiya Gününün Məqsədi Nədir?*

*İnsanlara cizgi filmlərinin necə maraqlı və əyləncəli olduğunu göstərmək.*

*Animasiya necə hazırlanır, hansı texnologiyalardan istifadə olunur və onun tarixi haqqında məlumat vermək.*

*Uşaqların və gənclərin animasiyaya marağını artırmaq, onların öz sevimli cizgi qəhrəmanlarını yaratmasına ilham vermək.*



*Yəni Animasiya Günü həm əyləncəli, həm də öyrədici bir gündür!*

*Animasiya yalnız gülməli və əyləncəli deyil, həm də bizə dostluq, mərhəmət, cəsarət və xəyal gücü haqqında dərslər öyrədir.*

*Bəs siz bilirsinizmi ki, Azərbaycanın da öz cizgi filmləri var?*

*"Mərhəmətin dadı", "Balaca ev", "Köhnə saat" və "Səmada şəkil" kimi filmlər beynəlxalq festivallarda nümayiş olunub və çox bəyənilib.*

*Dostlar, bəs sizin sevimli cizgi film qəhrəmanınız kimdir? Onunla birlikdə səyahətə çıxmaq istərdinizmi?*





# Bala dinozavr və üzgüçülük məktəbi






*Nağıllarda möcüzələrin baş verdiyini bilirsiniz! Məktəbə gedəcəyi gün yaxınlaşdıqca, Bala dinozavr qorxmağa başladı.Evindən ayrı qalmaq fikri onu dərinliyini bilmədiyi suya girmək qədər narahat edirdi.*

*"Birdən üzməyi öyrənə bilməsəm?! Birdən göl çox dərin olsa?! Birdən tək qalsam, nə edərəm?!" Bunları düşündükcə gözünə yuxu getmirdi...*

*Anası ilə danışandan sonra Bala dinozavrın qorxuları azaldı. Məktəbdə müəllim onu gülər üzlə qarşıladı. Burada çoxlu uşaq var idi. Əvvəl ayağını yavaşca suya saldı. Su heç də düşündüyü kimi qorxulu deyildi. Yoldaşları ilə birlikdə üzməyi öyrənmək çox əyləncəli idi. Bala dinozavr sevinclə anasına səsləndi:*

*- Anacan, üzmək dünyada ən gözəl şey imiş. Şap-şup səsləri, islanmaq....*

*- İslanmaq nəə..?*

*- İslanmaq çox əyləncəlidirrr....*



**Bu kitabları gəlib kitabxanamızda oxuya bilərsiniz.**

# Padel tennis



**Dostlar, biz hər nömrəmizdə çalışmışıq ki, sizin görüşünüzə maraqlı oyunlarla gələk. Elə oyunlar ki, sizin bilmədiyiniz. Bildikdə isə sevə-sevə oynayacağınız bir oyun. Siz tennis və skvoş oyunlarını sevirsinizmi? İndi sizə bu iki oyunun "balası" olan maraqlı bir idman növündən danışım – padel-tennisdən!**

Bütün hekayə çox maraqlı başlayıb. 1969-cu ildə Meksikada varlı bir cənab –Enrike Korker – Akapulkoda gözəl bir malikanə alır. Onun həyat yoldaşı Vivian tennis oynamağı çox sevirdi. Amma təsəvvür edin, yeni evin yanında tennis kortu yox idi! Enrike düşündü, düşündü və dedi:

- "Əgər burada kort yoxdursa, mən özüm bir oyun icad edərəm!"

Beləcə, o, kiçik ölçüdə (20x10 metr) bir meydança düzəltdi, ətrafını hündür şüşə divarlarla əhatə etdi və tennisə bənzər bir oyun qurdu. Amma bu dəfə raketlər bir az fərqli idi – qayıq avarına oxşayırdı! Ona görə də, oyuna "padel" adı verildi (ingiliscə "paddle" – avar deməkdir). Beləcə, bir ailənin həyat əyləncəsi sonradan bütün dünyada məşhur idman növünə çevrildi!

## PADEL-TENNİS NECƏ OYNANIR?

Padel — tennis və skvoşun qarışığıdır. Meydança balacadır, ətrafı şüşə və metal torla əhatələnib. Oyun adətən iki nəfərə qarşı iki nəfər (dubl) şəklində keçirilir.

## PADEL NİYƏ BU QƏDƏR SEVİLİR?

Başlamaq asandır – azca məşq edən hər kəs oynaya bilər.

Oyun çox dinamikdir, daim hərəkətdəsən! Güc, çeviklik və taktika tələb edir – həm bədəni, həm də beyni işləyir. Üstəlik, çox əyləncəlidir – dostlarla birlikdə gülərək, qaçaraq oynamaq mümkündür! Padel raketləri tennis raketindən bir az fərqlidir: onların simləri yoxdur, bərk materialdandır və üzərində çoxlu balaca deşiklər olur. Bu da raketi yüngül və idarəetməsini rahat edir.

## NƏTİCƏ OLARAQ...

Bir vaxtlar Enrienin həyatində yaranan bu oyun indi dünyanın dörd bir yanında sevilir. Kim bilir, bəlkə bir gün sən də padel çempion olarsan? Kim bilir...

